# Narkomaniya insanın mənəviyyatını məhv edir, "canlı ölü"yə çevirir

**Müasir dünyamızın ən mühüm problemlərindən biri olan narkomaniyadan bəşəriyyət hələ də əziyyət çəkməkdədir. Əvvəllər narkotikdən istifadə təhlükəsi bir neçə ölkə qarşısında dururdusa, artıq vətəndaşlarının narkotizasiyasının acı nəticələrini hiss etməyən ölkə tapmaq demək olar ki, mümkün deyildir. Vaxtilə bu problemə diqqət yetirilməməsi, ictimai təhlükəliliyinin lazımi dərəcədə qiymətləndirilməməsi nəticəsində narkomaniya yoluxucu xəstəlik kimi insanlar, xüsusən də gənclər arasında yayılmış, öz ərazisini genişləndirmiş, yaşadığımız dünyanı dağıtmaq səviyyəsinə qədər gəlib çıxmışdır.**



Hazırda dünyada 2 milyondan artıq narkoman var ki, onların bir qismini kişilər və qadınlar, digər qismini isə gənclər və uşaqlar təşkil edir. Gənclərdə üzə çıxan narkomaniyanın əsası yeniyetməlik dövründən başlayır.

Narkomanlıq cinayətkarlıqla və sosial kənarlaşmaların digər növləri ilə sıx əlaqədardır. Narkomanlar arasında aparılan araşdırmalar göstərir ki, narkomanların çoxu gec-tez cinayətkarlıq yoluna qədəm qoyurlar. Məhkum olunmuş narkomanlardan rəyi soruşulanların çoxu narkotik maddə almaq üçün oğurluq etmişlər. Narkomanlar arasında ictimai qaydalar və ictimai təhlükəsizlik əleyhinə cinayətlərin xüsusi çəkisi yüksəkdir, həmin cinayətlərin böyük bir qismi xuliqanlığın payına düşür. Narkomanların törətdikləri cinayətlərin bir hissəsi narkotik aclıq vəziyyətində edilir, lakin həmin şəxslər narkotik maddələrin təsiri altında heç də az təhlükəli deyillər. Narkomanların adam öldürməsi və sair ağır cinayətlər törətməsi hallarına kifayət qədər rast gəlmək olar.

Narkomaniya zəminində törədilən və tamah xarakteri daşıyan cinayətlərə narkotiklərin istehsalından, alverindən və narkotiklərlə bağlı digər qeyri-qanuni əməliyyatlardan böyük miqdarda qazanc əldə etmək məqsədi güdən ictimai təhlükəli əməlləri də aid etmək olar. Belə ki, alkoqoldan fərqli olaraq, narkotik qəbul etməklə müvəqqəti həzz alma nəticəsində adamda narkotik vasitənin təkrar istehlakı üçün güclü ehtiyac yaranır. Daha sonra, narkotiklərə vərdiş və onları daha böyük dozada qəbul etmək, yaxud daha güclü təsirə malik narkotik maddələri dadmaq arzusu baş qaldırır. Tədricən insan narkotiklərdən asılı vəziyyətə düşür, narkomaniya xəstəliyinə tutulur, bir qayda olaraq, şəxsiyyət kimi tənəzzülə uğrayır. Zəhmətsiz gəlir əldə etmək naminə, hətta insan fəlakəti üzərində varlanmaqdan belə çəkinməyən, narkotik vasitələrin satışı bazarını genişləndirmək üçün narkotik istehlakına daha çox adam cəlb etməyə çalışan narkoişbazlar narkotik vasitələrin insan orqanizminə bu cür təsirindən sui-istifadə edirlər.

Bəşəriyyət qarşısında duran mürəkkəb və çoxaspektli, hüquqi, sosial, mənəvi, iqtisadi, tibbi və psixoloji xarakterli arzuolunmaz neqativ nəticələrə gətirib çıxaran narkomanlıq Azərbaycanda da aktual olaraq qalır. Narkomaniyaya qarşı mübarizə tədbirləri nə qədər gücləndirilsə də o, yoluxucu xəstəlik kimi yayılmaqda davam edir.

Qeyd edilməlidir ki, respublikamızda narkomaniya ilə mübarizə sahəsində heç də az iş görülməmişdir, lakin bununla qətiyyən kifayətlənmək və arxayınlaşmaq olmaz. Cəmiyyətimizin, ayrı-ayrı ictimai birlik və təşkilatların ən müxtəlif dövlət strukturlarının, xüsusən də hüquq-mühafizə orqanlarının bu istiqamətdə səylərinin birləşdirilməsi və gücləndirilməsi əsas amildir.

Çünki yerləşdiyi geosiyasi məkana görə narkobizneslər Azərbaycana daha çox meyillidirlər. Onlar ölkəmizi narkotik vasitələrin qanunsuz dövriyyəsi üçün münasib dəhliz hesab edirlər. Odur ki, bu cür cinayətkarlığa qarşı mübarizə gündən-günə daha təsirli, peşəkar aparılır. Hüquq-mühafizə orqanlarının keçirdikləri uğurlu əməliyyatlar daim ictimaiyyətə açıqlanır.

Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi narkotik vasitələr sahəsində ən müasir avadanlıqla təchiz edilmiş, elm və texnikanın son nailiyyətlərinin və yeni texnologiyaların tətbiqi nəticəsində hər il məhkəmə və istintaq orqanlarının yüzlərlə sualı cavablandırılır.

Regionlarda fəaliyyət göstərən məhkəmə və hüquq-mühafizə orqanlarının narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının ekspertizasının keçirilməsində rastlaşdıqları çətinlikləri aradan qaldırmaq, onların həmin xidmətlərə əlçatanlığını asanlaşdırmaq və bu işdə operativliyi təmin etmək məqsədilə nazirliyin Ekspertiza Mərkəzinin Gəncə, Şirvan və Şəki regional bölmələri yaradılmışdır. Yeni bölmələr ixtisaslı kadrlarla komplektləşdirilmiş və müasir avadanlıqlarla təchiz edilmişdir.

Bundan başqa, narkotik vasitələrin tərkibində olan kənar qarışıqların tədqiqi üsulları, narkotiklərin ekspert tədqiqatının elmi-metodiki və prosessual əsasları, beynəlxalq nəzarətdə olan narkotik vasitələr, Azərbaycan Respublikasının ərazisində dövriyyəsi məhdudlaşdırılan narkotik vasitələrin diaqnostikası və müasir tədqiqat üsulları, yüngül təsirə malik olan narkotik bitkilərin tədqiqat metodikası, amfetamin sırasına aid olan stimuləşdirici və yeni psixoaktiv maddələrin tədqiqi, bitki mənşəli narkotik vasitələrin məhkəmə ekspertizasının bəzi xüsusiyyətləri və digər mövzularda elmi-tədqiqat işləri yerinə yetirilmişdir.

Həmçinin ekspertizaların təyini, aparılması və ekspert rəyinin qiymətləndirilməsi üzrə məhkəmə və istintaq orqanlarına daim metodik tövsiyələr verilmiş, ali məktəb tələbələri, hüquq-mühafizə orqanlarının işçiləri narkotik vasitələr tədqiq edilən laboratoriyaların müasir imkanları ilə yaxından tanış olmuşlar.

Eyni zamanda narkomaniyaya düçar olmuş şəxslər üçün tibb xidmətinin yaxşılaşdırılması, məhkəmənin hökmü ilə barələrində məcburi müalicə tətbiq edilmiş şəxslərin müalicəsi və onların cəmiyyətə sağlam qaytarılması istiqamətində addımlar atılmışdır.

Bu səbəbdən penitensiar sistemdə narkomaniyadan əziyyət çəkən məhkumlara tibbi yardımı təmin etmək məqsədilə cəzaçəkmə müəssisələrində həkim-narkoloqların sayı artırılmışdır. 2015-ci ildə 7 yeni həkim-psixiatr-narkoloq ədliyyə orqanlarına xidmətə qəbul edilmişdir.

Narkomaniyaya görə məcburi müalicənin operativliyini təmin etmək üçün müalicənin cəzaçəkmə müəssisələrinin Tibb-sanitar hissələrində həyata keçirilməsinə başlanılmış, qiymətləndirmə Həkim-Məsləhət Komissiyasının səyyar iclaslarında yerlərdə aparılmışdır. 2015-ci ildə Komissiyanın 106 səyyar iclası keçirilmişdir. Təqdim edilmiş 996 narkoloji xəstə-məhkumun 924-nə məcburi müalicənin davam etdirilməsinə zərurətin aradan qalxdığı barədə tibbi rəy verilmişdir. Eyni zamanda, komissiyalarda 3-ü ağır xəstə, 54-ü əlil, 12-si altmış yaşdan yuxarı olduğu üçün məcburi müalicənin tətbiq edilə bilinməməsi barədə, 3 nəfərinin isə məcburi müalicəsinin tamamlamaq mümkün olmadığına görə Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən ixtisaslaşdırılmış tibb müəssisəsində davam etdirilməsi barədə müvafiq tibbi rəylər verilmişdir. Məhkum və həbs olunmuş şəxslərdə narkotik maddə qalıqlarının aşkarlanması məsələlərinin qanuni əsasının təmin olunması üçün mövcud qanunvericilyə dəyişiklik və əlavələrin edilməsi barədə Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsi tərəfindən təkliflər verilmişdir.

Penitensiar sektorda narkoloji xəstələrə dezintoksikasion, simptomatik, vitaminoterapiya, nootroplarla, hepatoprotektorlarla müalicə, həmçinin fərdi psixoterapiya müalicəsi aparılır. İstintaq təcridxanalarında aşkar edilən bütün abstinensiya halları zamanı həbs olunmuş şəxslərə tələb olunan tibbi yardımlar göstərilir. Cəzaçəkmə müəssisələrində müxtəlif mövzularda ("Sağlam həyat naminə narkotikdən uzaq duraq", "Gələcəyimizi birlikdə düşünək, narkomaniyaya yox deyək", "İİV (İnsanın immun çatışmazlığı virusu)-İİV infeksiyası xəstəliyinin törədicisidir", "AİDS/QİÇS! Nə etməli?", "Sağlam ailə naminə narkotiklərə yox deyək", "Dozanı aşma", "İİV/QİÇS nədir?", "İİV-lə yaşamağı öyrən", "" Hepatit B/C nədir?" və s.) bukletlər və broşürlər paylanılmış, Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən hazırlanmış narkomanlığın cəmiyyətə və insan sağlamlığına vurduğu ziyanı özündə əks etdirən "Mayak" adlı film nümayiş etdirilmişdir.

Penitensiar Xidmətin 21 cəzaçəkmə müəssisələrinin Tibb sanitar hissəsində yaradılmış "Sağlamlıq otaqları"nda narkomanlara qrup və fərdi şəkildə müxtəlif mövzularda (narkomaniya, qanla yoluxan xəstəliklər, riskli davranışlar, vərəm və s.) maarifləndirici filmlər nümayiş etdirlimiş, "Gənclər İnkişaf naminə" qeyri-hökumət təşkilatının psixoloqları tərəfindən narkomanlara və "İİV/QİÇS-ə yoluxmuş məhkumlara psixoloji yardım göstərilmişdir.

Qeyd etmək lazımdır ki, respublikamızda antinarkotik təbliğat, maarifləndirmə yolu ilə narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınması, bu xəstəliyə düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin daha da təkmilləşdirilməsi, bu sosial bəladan qurtulmaq istiqamətində müsbət nəticələrə nail olmaq məqsədilə əhali, o cümlədən məhkumlar arasında məqsədyönlü işlər həyata keçirilir.

Ekspert təcrübəsinə əsasən hesab edirik ki, 12 yaşdan 15 yaşa qədər olan yeniyetmələrin psixikası zərərli meyillərə xüsusi ilə həssasdır. Məhz bu dönüş yaşda, ailədə olan oğlan və ya qızlar valideynlərlə əlaqələrini zəiflətməyə çalışırlar. Bəzi hallarda valideynlərin məsləhətlərinə zidd getməyə başlayırlar, öz həyəcanlarını gizlədirlər, sərt və aqressiv olurlar. Bununla bərabər yeniyetməlik dövründə xəyalpərəstlik, qətiliyə və yetişməmiş emosional hərəkətlərə meyillilik əlamətləri də özünü göstərir. Yeniyetmə yaşında psixikanın bu xüsusiyyətləri isə narkomaniyanın inkişafı üçün əlverişli zəmin yaradır.

Xasiyyətin anomaliyaları ilə bərabər, yeniyetmə-narkomanlarda tez-tez tərbiyə defektləri üzə çıxır. Məhz səhv tərbiyə yeniyetmələrin narkotiklərə qoşulmasının əsas səbəblərindən biridir.

Ontogenezin yeniyetmə mərhələsində narkotik maddələrə qoşulmaq üçün səbəb yaradan ən vacib psixoloji amillərdən biri yeniyetmənin yaşadığı xoşagəlməz sosial-məişət mühitidir. Belə ailələrə ər-arvad arasında emosional-şəxsiyyət əlaqələrinin pozulduğu, uşaqları diqqətdən, qayğıdan, valideyn nəvazişindən və sevgisindən məhrum edən, ilk növbədə karyera, pul, maddi təminat, sonra isə uşaq və onun maraqları güdən ailələr aiddir.

Narkotiklərə qoşulmağa başlamış yeniyetmə, öz əqli və idrak bacarıqlarının, maraqlarının itirilməsindən başqa tam mənəvi tənəzzül edir. Çünki həmin yeniyetmələrdə müsbət maraqların və meyillərin əvəzinə gəlmiş maraqlar onların bütün mənfi ifadələri ilə onun psixi proseslərini reqressə (yəni, müsbətdən mənfiyə) tərəf inkişafa sürükləyir. Belə yeniyetmələrdə əqli və intellektual bacarıqların pozulması, təhsilə həvəssizlik, əxlaqın aşağı düşməsi, dərs fənlərini mənimsəmək bacarığının olmaması, anlaqlı dərk etmə bacarığının və yaddaşın itirilməsi, aqressivlik elementləri ilə ümumi narahatlığın və əsəbiliyin üstünlük təşkil etməsi müşahidə olunur.

Hesab edirik ki, narkomaniyanın profilaktikası ailə və məktəbdən başlanmalıdır. Valideynlərin uşaqlarının narkomaniyadan qorunmasında bu profilaktikanın rolunu başa düşmələri olduqca mühümdür. Eyni zamanda nəzərə almaq lazımdır ki, narkomaniyanın profilaktikası qarşılıqlı inam olan ailədə mümkündür.

Ailədə narkomaniyanın profilaktikasının yalnız söhbət formasında aparılması həmişə müsbət nəticə vermir. Böyüklər tez-tez səhvlər edirlər, uşağın fikrinə hörmət etmirlər, ona qulaq asmırlar, amma uşaq səhv edəndə, adətən, onu cəzalandırırlar və çox vaxt ona niyə səhv etdiyini və bu səhvi aradan qaldırmağın yollarını başa salmırlar. Bu halda uşaq, yeniyetmə öz problemləri barədə yoldaşları ilə bölüşür və çox zaman yanlış məlumat alır. Ona görə də ailədə onların fikirlərinə, düşüncələrinə diqqətlə yanaşılmalı, onlarla nəinki valideyn, hətta dost səviyyəsində münasibət qurulmalıdır. Uşaqlara düzgün yol göstərilməli, dost seçimində məsləhət verilməli, hətta lazım gələrsə, şübhəli məqamlarda özlərindən xəbərsiz izlənmələri də məqsədəuyğun olardı.

Narkomaniyanın qarşısını almağın ən əlverişli yolu onun məktəblərdə profilaktikasını aparmaqdır. Məhz ən çox yeniyetmələr təhlükəli işlərə meyilli olduğundan buna görə də şəxsiyyətin formalaşdığı dövrdə bir sıra xəbərdarlıq yönlü fəaliyyətlərin aparılması vacibdir. Lazımi tərzdə yanaşma və təsirli informasiyalar verdikdə uşaqlar narkomaniya barədə öz fikirlərini formalaşdıra və ondan istifadənin nə kimi fəsadlar verə biləcəyi barədə düzgün biliyə malik olurlar.

Məktəbli azyaşlılar və yeniyetmələr arasında narkomaniyanın profilaktikası mütləq və aydın başa düşüləcək tərzdə olmalıdır. Narkomaniyanın profilaktikası yeniyetmələr tərəfindən çox ciddi qəbul olunmalı və birmənalı olaraq onlarda narkotiklərdən uzaq durma mövqeyini formalaşdırmalıdır. Narkomaniyaya qarşı profilaktika sistematik olmalı və kütləvi xarakter daşımalıdır.

Buna görə də narkomanlığa qarşı vaxtında aparılmış keyfiyyətli profilaktik tədbir çox vacibdir. Bu, profilaktika böyüməkdə olan gənc nəslə aid maarifçilik işinin ayrılmaz hissəsi olmalıdır. Yeniyetmələr arasında aparılan keyfiyyətli profilaktik iş narkotik istifadəçilərinin sayını azaltmaqla müsbət nəticələr verir, onları ailələrinə və cəmiyyətə qazandırır.

Müasir dünyada narkomaniya ona qarşı yeni mübarizə üsullarının yaranmasından daha sürətlə yayılır. Buna görə də bu bəla ilə sistematik profilaktik mübarizə aparılması çox vacibdir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev demişdir: "Coğrafi mövqeyindən, ictimai-iqtisadi quruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi əlaqələrindən asılı olmayaraq, elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın. Məlumdur ki, narkomaniya və narkobiznes insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir".

Göründüyü kimi, bütün hallarda narkomaniya və narkobiznes təhlükəli cinayətlərdir. Odur ki, buna qarşı ümummilli mübarizə mütləq lazımdır. Bu mübarizə həyatımızı, gələcəyimizi, sərvətimizi, sağlamlığımızı, dövlətçiliyimizi qorumağa xidmət edir.

**Səbinə Qədirova,**

**Zemfira Məmmədova,**

Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Məhkəmə Ekspertizası
Mərkəzinin əməkdaşları